# BİR SÖHBƏTİN PƏRDƏARXASI MƏQAMLARI...



**Mayın 5-i Azərbaycan Respublikasının Xalq artisti, teatr və kino sənəti tariximizdə özünəməxsus sanballı yer tutan Ələddin Abbasovun doğum günüdür. Romantik və realist aktyor məktəbinin görkəmli nümayəndəsi teatr və kinoda yaratdığı 200-dən artıq müxtəlif səpkili rollarla aktyorluq sənətində xüsusi yer tutur. 15 yaşından Gəncə Dövlət Dram Teatrının nəzdindəki aktyorluq studiyasında böyük sənət yoluna qədəm qoyan aktyor yaradıcılığında "Dəli Kür" filmində oynadığı Cahandar ağa obrazına möhür vurub.**

Bu böyük sənətkarla dəfələrlə görüşüb söhbət etmişəm. Teatr səhnəsində oynadığı rollar, kinomuzdakı möhtəşəm fəaliyyəti ilə bağlı söhbətləri barədə mətbuat səhifələrində müxtəlif janrlı yazılarım dərc olunub. O böyük sənətkarın teatr səhnəsində və ekranda yaratdığı obrazlar, sənətdə yaradıcılıq tərcümeyi-halındakı uğurlar, narahatlıqlar və bununla bağlı onu düşündürən məsələlər barədə şəxsi söhbətlərimizdə yaddaşımda çox maraqlı məqamlar qalıb. Xüsusilə "Dəli Kür" filmi, həmin filmdə Allahyar roluna təsdiq olunması, lakin Cahandar ağa obrazına çəkilməsini aktyor ömrünün tale yazısı kimi qeyd edirdi. "Dəli Kür" filmində sonsuz həvəslə oynadığı Cahandar ağa obrazının ekran həyatı haqqında həvəslə danışsa da söhbətlərində bir narahatlıq hiss olunurdu. Filmdə hadisələrin təlatümlü axını, obrazların xarakteri, şəxsiyyəti, davranışı ilə bağlı çox qürurla danışsa da, milli mənsubiyyətimizin ilahi ifadəsi ilə zirvə sayılan Cahandar ağa haqqında söhbətlərində həmişə bir nisgil hiss olunurdu.

Böyük aktyorun anadan olmasının 75 illiyi münasibətilə o vaxt hazırladığım material zamanı şəxsi söhbətimizdə filmlə bağlı bütün narahatlıqlarını danışdı. Mətbuatda yer almayan həmin faktları ilk dəfə oxucularımızla bölüşürəm.

Yəqin sənətsevərlərin xatirində olar, filmin böyük ekranda nümayişi başlayanda "Dəli Kür" romanının fərqli ekran yozumu tamaşaçılarda müxtəlif cavabsız suallar, müəmma və şayiələr doğurdu.

Bu narahatlıqlar nədən yaranırdı? "Dəli Kür"ün zamanın keşməkeşlərindən xəbər verən təlatümlü məqamları, Cahandar ağanın romandan fərqli olan ekran həyatı tamaşaçıları niyə narahat edirdi? Ələddin Abbasovun böyük ürək və həvəslə oynadığı rol haqqında söhbətinə kölgə salan nə idi?

Qeyd edirdi ki, Cahandar ağa obrazı aktyor həyatımın təsadüfi xoşbəxtliyidir. Çünki sınaq çəkilişlərində iştirak etmədən Allahyar rolunu oynayacağımı bildirdim. Yalnız çəkilişləri gözləyirdim.

Amma sənət taleyimə Cahandar ağa rolunu oynamaq da yazılıbmış.





Film haqqında söhbətində hiss olunan incikliyin, narahat əhval-ruhiyyəsinin səbəbini soruşdum. Buna səbəb həm də romanının ekran həllinin oxucularda doğurduğu narahatlıq idi.

Bir xeyli susdu. Sonra siqaretə dərin bir qüllab vurub, söhbətə başladı. Dedi ki, ekranda gördüyünüzdən tamam fərqli bir film çəkilmişdi. Mühit, obrazlar, dərin dramatizm, tamaşaçını hər an öz cazibəsində saxlayan gözlənilməz dönümlər, milli və bu milliliklə bəşəriləşən adət-ənənələrimiz, əsl Azərbaycan kişisinin bədii kəşf səviyyəsinə yüksələn bütöv daxili aləmi filmin ekran həyatında öz dolğun əksini tapmayıb. Xüsusilə o nəhəng qəhrəmanın bir kəmfürsət, mənəviyyatsız, günü qumarxanalarda keçən kor Allahyarın gülləsi ilə öldürülməsi bağışlanılmaz idi. Amma ovaxtkı İttifaqın kino rəhbərləri filmə baxıb, şovinist xislət Cahandar ağanın əsl Azərbaycan kişisi kimi çəkilməsini qəbul etməyib və hazır filmə "sığal" çəkilib, möhtəşəm ekran işini şikəst ediblər.

Dərin bir təəssüf hissi ilə vurğuladı ki, millətimizə kölə gözü ilə baxan İttifaqın kino rəhbərləri Cahandar ağanı əsl Azərbaycan kişisi kimi çəkməyi qəbul etməyiblər, tapşırıq da çox qısa və konkret olub və yuxarılar obrazı sosializm dövrünün gözü ilə baxılan bəy stereotipinə çevirmək tapşırığı veriblər. Nəticəsi də belə...

Sadəlövhcəsinə soruşdum, bəs siz niyə narazılıq etmədiniz?

Böyük aktyor dərin fikrə getdi. Yaralı yerinə toxunmuşdum, sükutun ağırlığı məni də sarsıtdı. Bilsəydim soruşmazdım.

Başını qaldırıb dirsəkləndiyi qrim stolunun güzgüsünə taxılmış, müqtədir aktyorlar Mehdi Məmmədovun və Məmmədrza Şeyxzamanovun hər səhnəyə çıxanda xeyir-dua aldığı kiçik fotoşəkillərinə baxdı. Çaşıb qalmışdım, elə bil sualı onlar da eşitmişdilər və cavabı səcdəgaha çevrilən bu adamların ruhunda yuyulub, durulmalı idi.

Dedi ki, filmi ilk dəfə ictimai baxış zamanı gördüm. Aktyor taleyimdən razı adamam, amma süni quraşdırılmış ölüm səhnəsi məni sarsıtdı. Film çox itkilərə məruz qalıb, onlarla qismən də olsa barışmaq olardı, amma o müqəddəs ölüm səhnəsinin montaj edilməsi əsl faciə idi... Cahandar ağa kimi kişiyə belə ölüm yaraşmırdı.

Yenə söhbətə ara verdi.

Acı təəssüf hissi ilə dedi ki, İttifaq sosializmin gözü ilə baxılan bəy obrazı yaratmağı tələb etdi, biz də susduq, milli mənəviyyatımıza, ləyaqət və dəyanətimizə, şəxsiyyət və qeyrətimizə sığmayan bu etirazla barışdıq.

Yenə fasilə, yenə acizanə köksötürmələr. Yəqin baxmış olarsınız, - dedi, gürcülərin bir "Data Tutaşxia" filmi var. Çoxseriyalı ekran əsəridir. Orada da milli qəhrəman Cahandar ağa kimi öz millətinin daxilindən qopub gələn bir kişi obrazıdır. Gürcülər öz qəhrəmanlarına elə qayğı, elə həssaslıqla yanaşırlar ki, sanki ekranda gördüyün adi insan deyil, kişilik, qorxmazlıq, güc-qüdrət rəmzinə çevrilmiş ilahi məxluqdur. Filmdə hadisələrin inkişafı elə bir nöqtəyə çatır ki, artıq filmin qəhrəmanı Data Tutaşxiya üçün ölüm qaçılmazdır. Gürcülər bu məqamda da əlçatmaz zirvədə dayanırlar. Öz qəhrəmanlarının ölümünü heç kəsə qıymırlar, yeni gürcü qəhrəmanını öldürmək hər kişinin, hər millətin işi deyil. Data Tutaşxiya anlaşılmazlıq (ehtiyatsızlıq da demək olar) üzündən təsadüfən kiçik yaşlı oğlunun gülləsindən ölür. Gürcülər bir addım da irəli gedirlər, qəhrəmanın cəsədi tapılmır, ilahi məxluq kimi qeybə çəkilir. Bu filmə baxan gürcü gəncini yenmək olarmı, inanmıram.

Bizim etdiklərimiz də göz qabağındadır.

Sonra əlavə etdi, bu problem təkcə "Dəli Kür" filmi ilə bağlı deyil, ümumiyyətlə, sovet dövrü kino sənətimizin ağrılı yeridi. Qoy yadıma düşmüşkən bir fakt da deyim. O vaxt mərhum Zeynal Xəlilin ssenarisi əsasında "Qatır Məmməd" filmi çəkilirdi. Xeyli vəsait xərclənmiş, ekran əsəri üzərində işin yarısı da başa çatmışdı. Gözəl bir milli film yaranırdı. Hadisə və obrazlar, milli kolorit adamı heyran edirdi. Amma bu da İttifaq rəhbərliyinin xoşuna gəlmədi, yaradıcılıq işi yarımçıq dayandırıldı. Yeni film çəkmək Rapoport və Makarskiyə tapşırıldı. Nə alınıb, görmüsünüz...

Əslində Ələddin Abbasovun ürəkağrısı ilə dediyi bu faktlar təkcə kino tariximizin itkiləri deyil, əslində gənc nəslin milli formalaşma prosesinə vurulan zərbələr idi.

O vaxt Qarabağ müharibəsini xatırladı, itkilərimizi ürəkağrısı ilə qeyd etdi. Çox təəssüflər olsun, xalqımızın bugünkü qələbəsini, ölkə başçısının qətiyyəti və rəhbərliyi, ordumuzun şücaəti və xalqımızın iradəsilə qazandığımız tarixi qələbəni görmədi. Amma vətən sevgisi, üsyankar ruhu və mübariz əhval-ruhiyyəsi ilə daim xatirəmizdə və yanımızdadır.

**Vaqif TANRIVERDİYEV,**
**"Respublika".**